AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
MƏRKƏZİ ELMİ KİTABXANA

# AZƏRBAYCAN MİLLİ MƏTBUATI MÜSTƏQİLLİK DÖVRÜNDƏ

**1991-2025**

*biblioqrafik göstərici*

**Bakı – Elm – 2025**

**AZERBAIJAN NATIONAL ACADEMY OF SCIENCES**
**CENTRAL SCIENTIFIC LIBRARY**

# AZERBAIJAN NATIONAL PRESS IN THE PERIOD OF INDEPENDENCE

**1991-2025**

*biliographic index*

**Baku – Elm – 2025**

UOT 016:070(479.24)
A99

| | |
|---|---|
| **Elmi məsləhətçi:** | **İsa Həbibbəyli**<br>*akademik* |
| **Elmi redaktor:** | **Hüseyn Hüseynov**<br>*texnika elmləri doktoru, dosent* |
| **Tərtibçilər:** | **Təranə Rüstəmova**<br>**Mahnur Həsənova** |
| **Redaktorlar:** | **Aytən Əliyeva**<br>*filologiya üzrə fəlsəfə doktoru*<br>**Nərgiz Novruzova** |

Azərbaycan milli mətbuatı müstəqillik dövründə: 1991-2025 /AMEA Mərkəzi Elmi Kitabxana.– Bakı: Elm, 2025.– 460 s.

ISBN 978-9952-570-53-3

*Biblioqrafik göstərici Azərbaycan mətbuatının yaranmasının 150 illik yubileyi münasibətilə tərtib olunmuşdur. Göstəriciyə Azərbaycan milli mətbuatı haqqında kitablar və məqalələr, məcmuə, kataloq, toplu, bülleten, lüğət, ensiklopediyalar, Azərbaycan mətbuatına dair müdafiə olunmuş dissertasiya və avtoreferatlar, konfrans materialları, Azərbaycan mətbuatı haqqında tərtib edilmiş biblioqrafiyalar və digər materiallar daxil edilmişdir.*

© AMEA Mərkəzi Elmi Kitabxana, 2025
© "Elm" nəşriyyatı, 2025

## TƏRTİBÇİLƏRDƏN

Azərbaycan mətbuatının yaranmasının 150 illik yubileyi respublikamızda geniş miqyasda qeyd edilir. Belə ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin imzaladığı sərəncam, əsasnamə və fərmanlar – "Azərbaycan milli mətbuatının 150 illiyi (1875–2025)" Azərbaycan Respublikasının yubiley medalı haqqında Əsasnamə (20 fevral 2025), "Azərbaycan milli mətbuatının 150 illiyi (1875–2025)" Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 3 fevral tarixli 132-VIIQD nömrəli Qanununun tətbiqi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı (20 fevral 2025), Azərbaycan milli mətbuatının 150 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (25 aprel, 2025) milli mətbuata dövlət qayğısının nümünəsidir.

Buna müvafiq olaraq AMEA Mərkəzi Elmi Kitabxanası "Azərbaycan milli mətbuatı müstəqillik dövründə: (1991-2025)" adlı biblioqrafik göstərici hazırlamağı qarşısına məqsəd qoymuşdur. Qeyd edək ki, bugünədək Azərbaycan mətbuatına dair xeyli sayda zəngin məlumatları özündə əks etdirən biblioqrafik vəsaitlər hazırlanaraq çap edilmişdir. Bu göstəricilərə misal olaraq aşağıdakıları sadalamaq olar: "Mətbəəyi-İctihadın fehrist nəşriyyatı. Biblioqrafiya" (1908), "Azərbaycanda dövri mətbuat: (1832-1920)": biblioqrafiya (N.Axundov,1965), "Azərbaycan dövri mətbuatı:

1875-1990”. Biblioqrafiya (S.Rüstəmova-Tohidi, 1993), “Azərbaycan dövri mətbuatı: (1920-1970-ci illər)”. Biblioqrafiya (Z.Mustafayeva, 1979), “Azərbaycan dövlət nəşriyyatı kataloqu” (1925, 1926, 1926), “Bakı fəhləsi” kooperativ nəşriyyatının kataloqu” (1926), “Azərbaycan mətbuat salnaməsi və çap kartoçkalarından istifadə olunması” (Ə.Əliyev 1962), “Gəncədə mədrəsə kitabxanası. Əsamül – kütüb Bağçasaray: “Tərcüman” qəzetinin elektrik basmaxanası” (1912), “Azərbaycan türk mətbuatı: (1875-1921)”. (M.Məhəmmədzadə, 1922), “Danişməndani-Azərbaycan” (M.Tərbiyət 1987), “Azərbaycan dövri mətbuatı”: biblioqrafiya (N.Axundov, 1987), "Hümmət" qəzetinin izahlı biblioqrafiyası” (N.Axundov, 1987), “Azərbaycan dövri mətbuatı 1832-1920”: biblioqrafiya (1987), “Ədəbi yaddaşımız “Ədəbiyyat qəzeti”. Biblioqrafiya” (Ə.Əfəndiyev 1964; 1965-1989,1990-2010 (2013), “İranda mövcud olan və çap edilmiş Azərbaycan türkcəsindəki sənədlərin biblioqrafiyası” (Nuşin Musəvi, 1994), “Türkiye dışındakı türkler biblioqrafiyası” (1992), “Azərbaycan” jurnalının biblioqrafik göstəricisi: (1920-1972) (R.Tağıyev, 1973), “Бакинская печать в 1905-1907” (Е.А.Богословский, 1907-1909), “Azərbaycan kitab letopisi” (Salnamə), “Azərbaycan qəzet məqalələri letopisi” (Ə.Qəhrəmanov), "Əkinçi" qəzeti və "Molla Nəsrəddin" “Azərbaycan Mətbuat tarixinin salnaməsinin tərtibi” (Ə.Mirəhmədov), “Molla Nəsrəddin” jurnalının nəşri tarixi”, “Azərbaycan satira jurnalları”, “Mətbuat: biblioqrafiya” (N.Axundov, 1875–1920) və s. Adları çəkilən biblioqrafiyalarda nəinki Azərbaycan ərazisində, həmçinin xarici dövlətlərdə (Gürcüstan, İran, Türkiyə və s.) Azərbaycan mətubuatına dair məlumatlar toplanaraq vəsaitlərə daxil

edilmişdir. Həmin mənbələr əsasən gürcü, ərəb və fars dillərində və ya həmin dillərin əlifba qrafikasına uyğun olaraq azərbaycan türkcəsində nəşr olunmuşdur.

Bu biblioqrafiyaların son nəşr tarixi 1993-cü ildir. Həmin tarixdən sonra Azərbaycan mətbuatının biblioqrafiyası külliyyat formasında tərtib edilməmişdir.

Bütün bu faktları nəzərə alaraq Mərkəzi Elmi Kitabxana Azərbaycan mətbuatının müstəqillikdən sonrakı dönəmlərin xronologiyasını əsas götürərək biblioqrafik göstəricini hazırlamağı planlaşdırmışdır. Müvafiq olaraq biblioqrafiyanı "Azərbaycan milli mətbuatı müstəqillik dövründə: (1991-2025)" mövzu biblioqrafik göstəricisi adlandırmışdır.

Məlumat üçün bildirək ki, biblioqrafiyada ilk dəfə olaraq Azərbaycan mətbuatının tərkib hissəsinə daxil olan Azərbaycanda fəaliyyət göstərmiş, hazırda da fəaliyyətini davam etdirən kütləvi informasiya vasitələri (*xəbər saytları, portallar, informasiya agentlikləri və holdinqlər*) və multimedia (*televiziya və radio kanalları, internet televiziyaları*) haqqında məlumat verilmişdir. Bu da biblioqrafiyanın üstünlüyünü daha da artırır. Mətbuat dedikdə, təkcə qəzet və jurnallar deyil, kütləvi informasiya vasitələrindən biri olan televiziya və radio kanalları da nəzərdə tutulur. Xüsusilə, son texnoloji elmi tərəqqinin məhsulu olan elektron informasiya vasitələrinin yaradılması ilə artıq mətbuat ənənəvi informasiya mənbələri ilə yanaşı elektron-onlayn (xəbər saytları, internet jurnalistikası, internet tv və radio kanalları və s.) informasiya mənbələrini də özündə ehtiva edir.

Beləliklə, AMEA Mərkəzi Elmi Kitabxanası tərəfindən tərtib olunmuş "Azərbaycan milli mətbuatı müstəqillik

dövründə: (1991-2025)" adlı biblioqrafik göstəricisinə 3290 mənbə daxil edilmişdir.

Kitabın sonunda biblioqrafiyadan istifadəni asanlaşdırmaq məqsədilə "Kitabların əlifba göstəricisi", "Məqalə müəlliflərinin əlifba göstəric isi" adlı soraq axtarış aparatı tərtib edilmişdir.

**Azərbaycan milli mətbuatının 150 illik yubileyinin keçirilməsi haqqında**

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

XIX əsrin ikinci yarısında dünyanın neft və sənaye mərkəzlərindən birinə çevrilmiş və iqtisadi yüksəliş dövrünü yaşayan Azərbaycanın ictimai-siyasi və mədəni həyatında əsaslı dəyişikliklər baş vermiş, maarifçilik hərəkatı genişlənməyə başlamış, milli mətbuatın yaranması zərurəti meydana çıxmışdı. Məhz buna görə də 150 il əvvəl – 1875-ci il iyulun 22-də görkəmli ziyalı, təbiətşünas alim və maarifçi-publisist Həsən bəy Zərdabinin Azərbaycan dilində nəşr etdirdiyi "Əkinçi" qəzeti milli mətbuatımızın ilk nümunəsi və ölkəmizin həyatında mühüm hadisə kimi tarixə düşmüşdür. Cəmi iki il fəaliyyət göstərən qəzet maarifçi ideyaların carçısı olmuş, cəhalətə və xurafata qarşı kəskin məqalələr dərc etmiş, milli özünüdərkin, ictimai, siyasi və bədii fikrin inkişafına, mütərəqqi jurnalist nəslinin yetişməsinə önəmli töhfə vermişdir.

"Əkinçi"dən sonra onun ənənələrini davam etdirən çoxsaylı nəşrlər dövrün vətənpərvər ziyalılarını, maarifçilərini eyni məslək ətrafında birləşdirərək, milli oyanış prosesinin

aparıcı vasitələrindən biri kimi ümummilli məqsədlərin gerçəkləşməsində mühüm rol oynamışlar.

Keçən yüzilliyin sonlarında xalqın tələbi ilə yenidən hakimiyyətə qayıdan Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən islahatlar ölkəmizdə söz və məlumat azadlığının, fikir plüralizminin və digər demokratik dəyərlərin bərqərar olması üçün etibarlı zəmin yaratdı. Heydər Əliyev medianın inkişafını prioritet vəzifələrdən biri hesab etmiş, onun fəaliyyətini tənzimləyən qanunvericilik bazasının formalaşdırılması, inkişafını əngəlləyən süni maneələrin aradan qaldırılması, maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində ardıcıl qərarlar qəbul etmiş, dövlət–media münasibətlərində mütərəqqi ənənələrin əsasını qoymuşdur.

Ötən dövr ərzində müstəqil siyasi kursun qətiyyətlə və ardıcıl həyata keçirilməsi nəticəsində ölkəmizin dinamik inkişafı təmin edilmiş, qarşıda duran strateji vəzifələr uğurla gerçəkləşdirilmişdir. Azərbaycan Vətən müharibəsində şanlı Zəfər qazanaraq və unikal antiterror əməliyyatı ilə hərb tarixinə yeni səhifə yazaraq, ərazi bütövlüyünü və suverenliyini tam bərpa etmişdir. Müharibə dövründə mediamız əsl vətənpərvərlik, həmrəylik nümunəsi ortaya qoymuş, haqq səsimizin dünya ictimaiyyətinə çatdırılması, düşmənin və onun havadarlarının saxta məlumatlarının ifşası üçün xüsusi səy göstərmiş, Milli Ordumuzun, əsgər və zabitlərimizin rəşadəti, qəhrəmanlığı ilə bağlı zəngin salnamə yaratmışdır.

Vətən müharibəsində qələbəmizdən az sonra başlanan islahatlar, o cümlədən "Media haqqında" Qanunun qəbul edilməsi media fəaliyyətinin rəqəmsal dövrün çağırışlarına uyğunlaşdırılmasını və ölkəmizin informasiya mühitinin sağlamlaşdırılmasını hədəfləmişdir. Vergi azadolmalarının

tətbiqi, qəzet və jurnallar üçün əlavə dəyər vergisinin aradan qaldırılması, jurnalistlərə güzəştli ipoteka kreditindən yararlanmaq hüququnun verilməsi və digər tədbirlər informasiya resurslarının iqtisadi müstəqilliyinin gücləndirilməsi və jurnalistlərin sosial müdafiəsinin yaxşılaşdırılması istiqamətində görülən işlərin davamlılığını təmin etmişdir.

Bu gün mediamız Azərbaycanın tərəqqisinin və müasir cəmiyyət quruculuğu prosesinin fəal iştirakçısı olaraq, beynəlxalq əlaqələrini və qlobal informasiya məkanında təsir imkanlarını genişləndirmiş, rəqabət qabiliyyətini artırmışdır. Lakin dünya nizamının dəyişikliklərə məruz qaldığı, siyasi proseslərin intensivləşdiyi, habelə yeni fəaliyyət prinsiplərinin bərqərar olduğu müasir dövr Azərbaycan mediası qarşısında da yeni vəzifələr müəyyənləşdirir. Qabaqcıl texnologiyaların tətbiqi, sosial media platformalarında fəallığın artırılması, rəqəmsallaşma, süni intellekt, media savadlılığının yüksəldilməsi, dezinformasiya və saxta xəbərlərlə mübarizə, effektiv kommunikasiyanın həyata keçirilməsində yaxından iştirak və s. mediamızın inkişaf perspektivini və qarşıdan gələn dövrdə qlobal informasiya məkanında yerini müəyyənləşdirəcək məsələlərdir. Eyni zamanda, media müasir tendensiyaları nəzərə almaqla Azərbaycanın dövlət maraqlarını həmişə uca tutmalı, ölkəmizin müasir beynəlxalq münasibətlər sistemində yeri və rolu, həyatımızda baş verən pozitiv dəyişikliklər ilə bağlı ictimaiyyətimizin məlumatlandırılması sahəsində daha fəal olmalıdır.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, milli mətbuatın Azərbaycanın ictimai-siyasi və mədəni həyatındakı yerini, mədəniyyətin, maarifçiliyin inkişafında rolunu, müasir cəmiyyət quruculuğu və ölkəmizin beynəlxalq nüfuzunun

daha da yüksəldilməsi sahəsində töhfələrini nəzərə alaraq **qərara alıram:**

1. Azərbaycan milli mətbuatının 150 illik yubileyi ölkəmizdə geniş qeyd olunsun.

2. Azərbaycan Respublikası Prezidentinin Administrasiyası Azərbaycan Respublikası Medianın İnkişafı Agentliyi və Azərbaycan Mətbuat Şurası ilə birlikdə yubiley tədbirlərinin keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti yubiley tədbirlərinin maliyyələşdirilməsi ilə bağlı məsələləri həll etsin.

**İlham Əliyev**
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 25 aprel 2025-ci il

**“Azərbaycan milli mətbuatının 150 illiyi (1875-2025)” Azərbaycan Respublikasının yubiley medalı haqqında ƏSASNAMƏ**

20 fevral 2025

Azərbaycan Respublikasının
2025-ci il 3 fevral tarixli Qanunu ilə təsdiq edilmişdir.

“Azərbaycan milli mətbuatının 150 illiyi (1875–2025)” Azərbaycan Respublikasının yubiley medalı haqqında

**ƏSASNAMƏ**

**Maddə 1.** Təltif edilən şəxslər

“Azərbaycan milli mətbuatının 150 illiyi (1875–2025)” Azərbaycan Respublikasının yubiley medalı ilə media sahəsinin inkişafında xüsusi xidmətləri olan, bu sahədə səmərəli fəaliyyət göstərən və ya media ilə əməkdaşlıqda fərqlənən Azərbaycan Respublikasının vətəndaşları, əcnəbilər və vətəndaşlığı olmayan şəxslər təltif edilirlər.

**Maddə 2.** Təltif edən orqan

"Azərbaycan milli mətbuatının 150 illiyi (1875–2025)" Azərbaycan Respublikasının yubiley medalı ilə bu Əsasnamənin 1-ci maddəsində göstərilən şəxslər müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təltif edilirlər.

**Maddə 3.** Taxılma qaydası

"Azərbaycan milli mətbuatının 150 illiyi (1875–2025)" Azərbaycan Respublikasının yubiley medalı döşün sol tərəfinə, Azərbaycan Respublikasının digər orden və medalları olduqda onlardan sonra taxılır.

## “Azərbaycan milli mətbuatının 150 illiyi (1875–2025)” Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar “Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2025-ci il 3 fevral tarixli 132-VIIQD nömrəli Qanununun tətbiqi haqqında

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, “Azərbaycan milli mətbuatının 150 illiyi (1875–2025)” Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar “Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2025-ci il 3 fevral tarixli 132-VIIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. Azərbaycan Respublikasının 2025-ci il 3 fevral tarixli 132-VIIQD nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan milli mətbuatının 150 illiyi (1875–2025)" Azərbaycan Respublikasının yubiley medalı haqqında Əsasnamə"nin 2-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Əsasnamənin 2-ci maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi nəzərdə tutulur.

2. "Azərbaycan milli mətbuatının 150 illiyi (1875–2025)" Azərbaycan Respublikasının yubiley medalı ilə təltif etmək səlahiyyəti Azərbaycan Respublikası Medianın İnkişafı Agentliyinin İcraçı direktoruna verilsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti "Azərbaycan milli mətbuatının 150 illiyi (1875–2025)" Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 3 fevral tarixli 132-VIIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

**İlham Əliyev**

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 20 fevral 2025-ci il

**Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyətinin QƏRARI**

№15/2

**Bakı şəhəri** **7 iyul 2025-ci il**

*Azərbaycan Respublikası Prezidentinin“Azərbaycan millimətbuatının 150 illikyubileyinin keçirilməsi haqqında” 25 aprel 2025-ci il tarixli Sərəncamının icrasından irəli gələn vəzifələr haqqında*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev “Azərbaycan milli mətbuatının 150 illik yubileyinin qeyd edilməsi haqqında” 25 aprel 2025-ci il tarixli Sərəncam imzalamışdır.

Sərəncamda qeyd edilir ki, XIX əsrin ikinci yarısında dünyanın neft və sənaye mərkəzlərindən birinə çevrilmiş və iqtisadi yüksəliş dövrünü yaşayan Azərbaycanın ictimai-siyasi və mədəni həyatında əsaslı dəyişikliklər baş vermiş, maarifçilik hərəkatı genişlənməyə başlamış, milli mətbuatın yaranması zərurəti meydana çıxmışdı. Məhz buna görə də 150 il əvvəl – 1875-ci il iyulun 22-də görkəmli ziyalı, təbiətşünas alim və maarifçi-publisist Həsən bəy Zərdabinin Azərbaycan dilində nəşr etdirdiyi “Əkinçi” qəzeti milli

mətbuatımızın ilk nümunəsi və ölkəmizin həyatında mühüm hadisə kimi tarixə düşmüşdür. Cəmi iki il fəaliyyət göstərən qəzet maarifçi ideyaların carçısı olmuş, cəhalətə və xurafata qarşı kəskin məqalələr dərc etmiş, milli özünüdərkin, ictimai, siyasi və bədii fikrin inkişafına, mütərəqqi jurnalist nəslinin yetişməsinə önəmli töhfə vermişdir. Sərəncamda, həmçinin diqqətə çatdırılır ki, "Əkinçi"dən sonra onun ənənələrini davam etdirən çoxsaylı nəşrlər dövrün vətənpərvər ziyalılarını, maarifçilərini eyni məslək ətrafında birləşdirərək, milli oyanış prosesinin aparıcı vasitələrindən biri kimi, ümummilli məqsədlərin gerçəkləşməsində mühüm rol oynamışlar. Keçən yüzilliyin sonlarında xalqın tələbi ilə yenidən hakimiyyətə qayıdan Ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən islahatlar ölkəmizdə söz və məlumat azadlığının, fikir plüralizminin və digər demokratik dəyərlərin bərqərar olması üçün etibarlı zəmin yaratdı. Heydər Əliyev medianın inkişafını prioritet vəzifələrdən biri hesab etmiş, onun fəaliyyətini tənzimləyən qanunvericilik bazasının formalaşdırılması, inkişafını əngəlləyən süni maneələrin aradan qaldırılması, maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində ardıcıl qərarlar qəbul etmiş, dövlət–media münasibətlərində mütərəqqi ənənələrin əsasını qoymuşdur.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən imzalanmış Sərəncamda o da vurğulanır ki, ötən dövr ərzində müstəqil siyasi kursun qətiyyətlə və ardıcıl həyata keçirilməsi nəticəsində ölkəmizin dinamik inkişafı təmin edilmiş, qarşıda duran strateji vəzifələr uğurla gerçəkləşdirilmişdir. Azərbaycan Vətən müharibəsində şanlı Zəfər qazanaraq və unikal antiterror əməliyyatı ilə hərb ta-

rixinə yeni səhifə yazaraq, ərazi bütövlüyünü və suverenliyini tam bərpa etmişdir. Müharibə dövründə mediamız əsl vətənpərvərlik, həmrəylik nümunəsi ortaya qoymuş, haqq səsimizin dünya ictimaiyyətinə çatdırılması, düşmənin və onun havadarlarının saxta məlumatlarının ifşası üçün xüsusi səy göstərmiş, Milli Ordumuzun əsgər və zabitlərimizin rəşadəti, qəhrəmanlığı ilə bağlı zəngin salnamə yaratmışdır.

Sərəncamda göstərilir ki, Vətən müharibəsində qələbəmizdən az sonra başlanan islahatlar, o cümlədən "Media haqqında" Qanunun qəbul edilməsi media fəaliyyətinin rəqəmsal dövrün çağırışlarına uyğunlaşdırılmasını və ölkə mizin informasiya mühitinin sağlamlaşdırılmasını hədəfləmişdir. Vergi azadolmalarının tətbiqi, qəzet və jurnallar üçün əlavə dəyər vergisinin aradan qaldırılması, jurnalistlərə güzəştli ipoteka kreditindən yararlanmaq hüququnun verilməsi və digər tədbirlər informasiya resurslarının iqtisadi müstəqilliyinin gücləndirilməsi və jurnalistlərin sosial müdafiəsinin yaxşılaşdırılması istiqamətində görülən işlərin davamlılığını təmin etmişdir.

Bu gün mediamız Azərbaycanın tərəqqisinin və müasir cəmiyyət quruculuğu prosesinin fəal iştirakçısı olaraq, beynəlxalq əlaqələrini və qlobal informasiya məkanında təsir imkanlarını genişləndirmiş, rəqabət qabiliyyətini artırmışdır. Lakin dünya nizamının dəyişikliklərə məruz qaldığı, siyasi proseslərin intensivləşdiyi, habelə yeni fəaliyyət prinsiplərinin bərqərar olduğu müasir dövr Azərbaycan mediası qarşısında da yeni vəzifələr müəyyənləşdirir. Qabaqcıl texnologiyaların tətbiqi, sosial media platformalarında fəallığın artırılması, rəqəmsallaşma, süni intellekt, media savadlılığının yüksəldilməsi, dezinformasiya və saxta

xəbərlərlə mübarizə, effektiv kommunikasiyanın həyata keçirilməsində yaxından iştirak və s. mediamızın inkişaf perspektivini və qarşıdan gələn dövrdə qlobal informasiya məkanında yerini müəyyənləşdirəcək məsələlərdir. Eyni zamanda, media müasir tendensiyaları nəzərə almaqla Azərbaycanın dövlət maraqlarını həmişə uca tutmalı, ölkəmizin müasir beynəlxalq münasibətlər sistemində yeri və rolu, həyatımızda baş verən pozitiv dəyişikliklər ilə bağlı ictimaiyyətimizin məlumatlandırılması sahəsində daha fəal olmalıdı.

Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan milli mətbuatının 150 illik yubileyinin keçirilməsi haqqında" 25 aprel 2025-ci il tarixli Sərəncamı milli mətbuatımızın təşəkkül və inkişaf tarixinin Azərbaycan Respublikasının müstəqilliyi şəraitində, milli maraqlar və elmi yanaşmalar əsasında hərtərəfli şəkildə araşdırılmasını və təbliğini zəruri edir. Bu sənəd maarifçilik ənənələrinin qorunaraq davam etdirilməsi baxımından "Əkinçi" qəzetindən başlanan və ictimai şüurun formalaşmasında mühüm rol oynamış mətbuat salnaməsinin müasir dövrün informasiya siyasəti ilə uzlaşdırılaraq dəyərləndirilməsinin və öyrənilməsinin vacibliyini ön plana çəkir.

Sərəncamın AMEA-da icrasını təmin etmək məqsədilə, Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyəti **QƏRARA ALIR:**

1. Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan milli mətbuatının 150 illik yubileyinin keçirilməsi haqqında" 25 aprel 2025-ci il tarixli Sərəncamı icra üçün əsas sənəd kimi qəbul edilsin.
2. AMEA Rəyasət Heyəti və Azad Həmkarlar Təşkilatı

Mətbuat Günü ilə əlaqədar tədbirlər keçirilməsini təşkil etsinlər.

3. AMEA-nın Humanitar və İctimai Elmlər bölmələrinə tapşırılsın ki, bölmə üzvlərinin iştirakı ilə elmi müəs - sisə və təşkilatlarda Azərbaycan milli mətbuatının 150 illik yubileyinə həsr olunmuş tədbirlərin keçiril-məsini təmin etsinlər.
4. AMEA Rəyasət Heyəti Aparatının İctimaiyyətlə əlaqə-lər, mətbuat və informasiya şöbəsinə (filologiya üzrə fəl-səfə doktoru Ağahüseyn Şükürov) tapşırılsın ki, Azər-baycan Respublikası Prezidentinin "Azərbaycan milli mətbuatının 150 illik yubileyinin keçirilməsi haqqında" 25 aprel 2025-ci il tarixli Sərəncamına əsasən AMEA-da keçiriləcək tədbirlər kütləvi informasiya vasitələrində işıqlandırılsın.
5. Qərarın icrasına nəzarəti öz üzərimdə saxlayıram.

AMEA-nın prezidenti akademik İsa Həbibbəyli

## MÜSTƏQİLLİYİMİZİN GÜZGÜSÜ

Azərbaycan mətbuatının tarixi XIX əsrin sonlarından başlasa da, onun inkişafında dönüş nöqtələrindən biri məhz ölkənin müstəqillik qazanması ilə bağlıdır.

1991-ci ildə dövlət müstəqilliyini bərpa edən Azərbaycan həm siyasi, həm də ictimai sferada dərin struktur islahatlarına start verdi. Bu islahatların mühüm istiqamətlərindən biri də söz və mətbuat azadlığının təmin edilməsi oldu. Müstəqillik dövründə Azərbaycan mətbuatı azad, çoxşaxəli və rəngarəng bir sistemə çevrildi.

Lakin bu yol sadə və maneəsiz deyildi. Yeni dövr mətbuatının formalaşması bir sıra iqtisadi, hüquqi, siyasi və texnoloji çətinliklərlə müşayiət olunmuşdu.

SSRİ-nin dağılmasından sonra Azərbaycanın informasiya məkanı dərin bir keçid mərhələsinə qədəm qoydu. Sovet dövrünün senzura və ideoloji nəzarət sistemi ləğv olundu və mətbuat üzərində dövlət inhisarı aradan qaldırıldı. 1992-ci ildə qəbul edilən "Kütləvi informasiya vasitələri haqqında" Qanun mətbuatın hüquqi əsaslarını müəyyənləşdirdi. Bu qanun Azərbaycanda söz və fikir azadlığının təmininə yönəldilən ilk mühüm sənəd idi. Həmin dövrdə "Azadlıq", "Yeni Müsavat", "525-ci qəzet", "Ədalət", "Ayna-Zerkalo", "Xalq Cəbhəsi", "Bizim Yol" kimi qəzetlər öz ictimai-siyasi fəallıqları ilə fərqlənirdi.

Lakin bu mərhələdə ölkədə baş verən siyasi qeyri-sabitlik, iqtisadi çətinliklər və Birinci Qarabağ müharibəsi mətbuatın inkişafına da mənfi təsir göstərirdi. Texniki avadanlıqların çatışmazlığı, kağız və çap problemləri, jurnalistlərin sosial təminatsızlığı və fiziki təhlükəsizliyi ciddi

problemlərdən idi. Buna baxmayaraq həmin illərdə mətbuat demokratik cəmiyyətin əsas sütunlarından biri kimi formalaşmaqda idi.

1995-ci ildə qəbul edilən Azərbaycan Respublikasının Konstitusiyası söz və fikir azadlığını konstitusion hüquq kimi təsbit etdi. Konstitusiyanın 50-ci maddəsinə əsasən, hər kəsin fikir və söz azadlığı vardır və bu hüquq dövlət tərəfindən qorunur. Bu, ölkə daxilində azad mətbuatın formalaşmasına hüquqi zəmin yaratdı. 1998-ci ildə senzuranın rəsmi şəkildə ləğv edilməsi isə Azərbaycan mətbuatının tarixində mühüm dönüş nöqtəsi oldu.

Eyni zamanda, dövlət tərəfindən mətbuatın dəstəklənməsi məqsədilə bir sıra institutlar və proqramlar yaradıldı. 2000-ci illərin əvvəllərindən etibarən KİV-in inkişafına dair dövlət proqramları qəbul edildi. 2008-ci ildə Prezident yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu yaradıldı və mətbuat orqanlarına maddi və texniki dəstək verilməyə başlandı.

Azərbaycan mətbuatı müstəqillik dövründə çoxsaylı sınaqlardan keçərək, öz inkişaf yolunu müəyyənləşdirmişdir. Bu inkişaf həm hüquqi əsasların möhkəmlənməsi, həm də texnoloji imkanların genişlənməsi ilə müşayiət olunmuşdur. Ümummilli lider Heydər Əliyevin dövlətçilik fəlsəfəsində mətbuat təkcə informasiya vasitəsi deyil, həm də cəmiyyətin maariflənməsi, ictimai düşüncənin formalaşması, milli birliyin möhkəmlənməsi üçün əsas tribuna idi. O bu tribunanın gücünü anlayır, mətbuatın inkişafına xüsusi önəm verirdi. Hələ sovet dövründə – 1970-1980-ci illərdə Azərbaycana rəhbərlik etdiyi zaman Heydər Əliyev mətbuat işçilərinin maddi-texniki şəraitinin yaxşılaşdırıl-

ması, yeni mətbuat orqanlarının yaradılması, jurnalistlərin savadlı və bacarıqlı kadrlar kimi formalaşması istiqamətində mühüm addımlar atmışdı. 1998-ci ilin avqustunda Ulu Öndər tərəfindən senzuranın ləğv edilməsi milli mətbuat tariximizin ən parlaq səhifələrindən biri oldu. Bu qərar təkcə formal bir addım deyildi, bu, dövlətin mətbuata olan inamının, demokratik cəmiyyət quruculuğuna sadiqliyinin ifadəsi idi. Heydər Əliyev bu addımı ilə sübut etdi ki, dövlət və xalq arasında körpü olan mətbuat nəzarətdə deyil, güvən üzərində qurulmalıdır. Heydər Əliyev jurnalistikanın peşəkarlığını artırmaq məqsədilə jurnalistlərin təhsilinə, təcrübəsinə və sosial rifahına daim diqqət yetirirdi. Onun təşəbbüsü ilə bir çox jurnalistlər fəxri adlara, orden və medallara layiq görülmüş, KİV əməkdaşlarına mənzillər təqdim olunmuşdur. 1990-cı illərin çətin dönəmində belə, Ümummilli Liderin imzaladığı sərəncamlarla qəzet və jurnalların maddi-texniki bazası gücləndirilmiş, onların dövlət dəstəyi ilə fəaliyyət göstərməsi təmin olunmuşdu.

Ulu Öndər Heydər Əliyev tərəfindən əsası qoyulmuş informasiya siyasəti, mətbuata böyük sevgi və qayğı ənənəsi bu gün də davam etdirilir. Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva tərəfindən mətbuatın inkişafı üçün məqsədyönlü siyasət yürüdülür, möhkəm təməl üzərində yaradılmış ənənə daha da möhkəmləndirilərək uğurla davam etdirilir.

Demokratik dövlət quruculuğunun aparıcı dayaqlarından biri olan azad mətbuatın inkişafı üçün siyasi iradə, hüquqi zəmin və mənəvi münasibət zəruridir. Məhz bu amillərdən yola çıxaraq qeyd edə bilərik ki, Prezident İlham Əliyevin milli mətbuata göstərdiyi davamlı qayğı, jurnalistlərin əməyi-

nə verdiyi yüksək qiymət və informasiya siyasətinə dair ardıcıl addımları ölkəmizdə sağlam, məsuliyyətli və vətənpərvər media mühitinin formalaşmasına zəmin yaratmışdır.

Ölkə Prezidenti dəfələrlə çıxışlarında vurğulamışdır ki, "Azərbaycanda söz azadlığı təmin olunub və mətbuat azaddır." Bu, sadəcə bir bəyanat deyil, ölkədə həyata keçirilən informasiya siyasətinin əsas prinsipidir. Prezidentin mətbuata münasibəti yalnız tənzimləyici aktlarla deyil, həm də konkret addımlarla müşayiət olunmuşdur. 2003-cü ildən etibarən KİV-in inkişafına dair dövlət proqramlarının həyata keçirilməsi, jurnalistlərin mənzil-məişət şəraitinin yaxşılaşdırılması, onların sosial müdafiəsinin gücləndirilməsi həmin siyasətin konkret nəticələridir. Bu yanaşma mətbuatı yalnız informasiya daşıyıcısı yox, milli maraqlara xidmət edən strateji institut kimi görməkdən irəli gəlir. Prezident İlham Əliyev mətbuatın fəaliyyətini yüksək qiymətləndirmiş və bunu həm mənəvi, həm də praktiki səviyyədə sübut etmişdir. Məhz onun təşəbbüsü ilə 2010-cu ildən başlayaraq yüzlərlə jurnalistə dövlət tərəfindən mənzillər verilmişdir. 2013 və 2017-ci illərdə jurnalistlər üçün inşa olunmuş yaşayış binaları, təkcə fiziki mənzillər deyil, həm də milli mətbuatın yüksək dəyərləndirilməsinin təntənəsi olmuşdur. Hər il 22 iyul – Milli Mətbuat Günü münasibətilə Prezidentin jurnalistləri təbrik etməsi, fərqlənən şəxsləri orden, medal və fəxri adlarla təltif etməsi, onların fəaliyyətini dövlətin informasiya təhlükəsizliyinin mühüm tərkib hissəsi kimi tanıması, mətbuatla münasibətlərdə dərin bir siyasi mədəniyyətin təzahürüdür.

XXI əsr rəqəmsal informasiya dövrüdür. Prezident İlham Əliyev bu reallığı nəzərə alaraq, Azərbaycan media-

sının texnoloji transformasiyasına da xüsusi diqqət ayırmışdır. Onlayn media orqanlarının inkişafı, internet medianın hüquqi statusunun tənzimlənməsi, "Media haqqında" Qanunun qəbulu və Medianın İnkişafı Agentliyinin yaradılması bu istiqamətdə atılmış mühüm addımlardan biridir. Prezident İlham Əliyevin mətbuata münasibəti sübut edir ki, azad sözə dəyər vermək yalnız hüquqi məsələ deyil, həm də dövlətçilik fəlsəfəsidir. Onun belə yanaşması sayəsində bu gün Azərbaycan mətbuatı həm ölkə daxilində, həm də beynəlxalq informasiya məkanında öz mövqeyini qoruyur, dövlətin və xalqın informasiya ehtiyaclarını ödəmək üçün çevik, operativ və məsuliyyətli bir gücə çevrilmişdir.

Heç təsadüfi deyil ki, Azərbaycan milli mətbuatının 150 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 25 aprel 2025-ci il tarixli Sərəncamı da Azərbaycan mətbuatının fəaliyyətinə verilən ən böyük dəyərdir. Mətbuatın "dördüncü hakimiyyət" kimi deyil, xalqın söz haqqını qoruyan güclü bir sütun kimi tanınması onun həm də tədqiqat obyekti kimi xarakterizə olunmasına şərait yaradır. Bu xüsusda Azərbaycan Milli Elmlər Akademiyası Mərkəzi Elmi Kitabxanasında hazırlanmış "Azərbaycan milli mətbuatı müstəqillik dövründə 1990-2025" adlı biblioqrafik göstərici də mətbuatımızın müstəqillik dövrünün xronoloji mənzərəsini dolğun şəkildə əks etdirən mühüm vasitədir. Biblioqrafik göstəricidə Azərbaycan mətbuatının fəaliyyətinə həsr olunmuş kitablar, məqalələr, lüğət və ensiklopediyalar, dissertasiya və avtoreferatlar, jurnal və qəzetlər, eləcə də xəbər saytları, televiziya və radio kanalları, informasiya agentlikləri, internet televiziyaları və s. haqqında geniş materiallar toplanmışdır. Düşünü-

rük ki, biblioqrafik vəsait mətbuat tariximizin araşdırıcıları üçün qiymətli mənbə olacaq, Azərbaycan milli mətbuatının 150 illik yubileyinə dəyərli töhfə kimi qəbul ediləcəkdir.

**Ağahüseyn Şükürov**<br>
*filologiya üzrə fəlsəfə doktoru,*<br>
*AMEA Rəyasət Heyətinin*<br>
*İctimaiyyətlə əlaqələr, mətbuat və*<br>
*informasiya şöbəsinin müdiri*

## AZƏRBAYCAN MƏTBUATI HAQQINDA KİTABLAR

*Azərbaycan dilində*

**1991**

**1.** "Azərnəşr 91" ədəbiyyat buraxılışı planı /red. E.Fərəcov; Azərbaycan Respublikası Dövlət Mətbuat Komitəsi, Azərbaycan Respublika Kitab Ticarəti Birliyi "Azərkitab", Xalqlar Dostluğu Ordenli Azərbaycan Dövlət Nəşriyyatı.– Bakı: Azərnəşr, 1991.– 92 s.

**2.** Həsənzadə, T. C.Məmmədquluzadənin Cənub səfəri və "Molla Nəsrəddin" jurnalının Təbrizdə nəşri /T.Həsənzadə; red. T.Əhmədov; AzEA N.Gəncəvi ad. Xalqlar Dostluğu Ordenli Ədəbiyyat İn-tu.– Bakı, 1991.– 84 s.

**3.** Karvan: Roman-qəzet. Yanvar-fevral. 1991-ci il; baş red. O.Salamzadə.– Bakı: Azərbaycan Resp. Dövlət Mətbuat Komitəsinin nəşri, 1991.– 16-17-ci kitab.– 112 s.

**4.** Karvan: Roman-qəzet. Mart-aprel. 1991-ci il; baş red. O.Salamzadə.– Bakı: Azərbaycan Resp. Dövlət Mətbuat Komitəsinin nəşri, 1991.– 18-19-cu kitab.– 112 s.

**5.** Karvan: Roman-qəzet. Sentyabr-oktyabr. 1991-ci il; baş red. O.Salamzadə.– Bakı: Azərbaycan Resp. Dövlət Mətbuat Komitəsinin nəşri, 1991.– 24-25-ci kitab.– 96 s.

**6.** Qəzet satirasının əsasları: dərslik /Ceyran Əbdürrəhimova; red. F.Mehdiyev.– Bakı, 1991.– 244 s.

**1992**

**7.** Nehrəmli, N. Zülmətdə işıq: roman: [Sənədli romanda böyük satirik Cəlil Məmmədquluzadənin Nehrəmdə və Nax-

çıvanda yaşadığı dövr təsvir edilmiş, xalqın maariflənməsi uğrunda yazıçının apardığı yorulmaz mübarizə öz bədii ifadəsini tapmışdır.] /Novruz Nehrəmli.– Bakı: Gənclik, 1992.– 183 s.

**1993**

**8.** Azərbaycan jurnalistlər birliyinin nizamnaməsi. Azərbaycan Respublikası jurnalistinin peşə etikası kodeksi /red. S.Vəliyeva.– Bakı, 1993.– 16 s.

**9.** Televiziya: İki əsrin ayrıcında /E.Quliyev; ön söz müəl. C.Əlibəyov; red. S.İsmayılova.– Bakı, 1993.– 288 s.

**1994**

**10.** Həbibbəyli, İ. Cəlil Məmmədquluzadə /İsa Həbibbəyli; red. G.Əmrullaqızı.– Bakı: Şərq-Qərb, 1994.– 24 s.

**11.** Məmmədquluzadələr, C. və H. Məktublar /Cəlil və Həmidə Məmmədquluzadələr; tərt.ed.:, izah və müqəd. müəl. Ə.Mirəhmədov; xüsusi red.: İ.Həbibbəyli.– Bakı, 1994.– 120 s.

**1995**

**12.** Günəş kimi parlaq: Heydər Əliyev şəxsiyyəti mətbuat prizmasında /tərt. B.Abbaszadə; red. Ş.Yaqubov. – Bakı: Sirdaş, 1995.– 64 s.

**13.** Köçərli, F. "Molla Nəsrəddin"çi Ömər Faiq /Firudin Köçərli; red. F.Vahidov.– Bakı: Elm, 1995.– 76 s.

**1996**

**14.** Cəlil Məmmədquluzadənin xatirə fondu: kataloq: Cəlil Məmmədquluzadə – 125 /N.Gəncəvi ad. Azərbaycan Ədəbiyyatı Muzeyi; tərt.: X.B.Bəşirova, S.N.Hüseynova, Ş.C.İsmayılova; red. İ.R.İsrafilov.– Bakı: Vətən, 1996.– 80 s.

**15.** Molla Nəsrəddin: 10 cilddə (1906-1931) /tərt. ed. T.Həsənzadə; cildin red.-u və ön sözün müəl. Ə.Mirəhmədov; cildin bədii tərtibat F.Fərəcov; AMEA N.Gəncəvi ad. Ədəbiyyat İn-tu.– C.1: 1906-1907.– Bakı: Azərnəşr, 1996.– 712 s.

**16.** Müstəqilliyin çətin yolu... Biz hara gedirik? /Ş.Hüseynov; red. E.Məmmədyarova.– Bakı: Azərnəşr, 1996.– 328 s.

**1997**

**17.** Azərbaycan salnaməsinin səhifələrindən /T.Babanlı, V.İmaməliyeva.– Bakı: Boz Oğuz, 1997.– 184 s.

**18.** Həbibbəyli, İ. Cəlil Məmmədquluzadə: mühiti və müasirləri: monoqrafiya /İsa Həbibbəyli; elmi red. Ə.Mirəhmədov.– Bakı: Azərnəşr, 1997.– 682 s.

**19.** XX əsrin əvvəllərində Azərbaycanda kitab nəşri: Orucov qardaşları nəşriyyatının fəaliyyəti /Ə.Zeylanov; elmi red. T.Əhmədov.– Bakı: Azərbaycan, 1997.– 92 s.

**1998**

**20.** Gürcüstanda Azərbaycan mətbuatı: "Ziya"dan "Çənlibel"ədək (1878-1998): monoqrafiya /M.M.Çobanlı; elmi red. N.Xudiyev.– Bakı: Təhsil, 1998.– 112 s.

**21.** Mass-Media və intellektual mülkiyyət /red. A.Canıyev, İ.Şahmaroğlu; ön söz: Ş.Xuduoğlu.– Bakı: Qanun, 1998.– 200 s.

**22.** Media – Azərbaycan /tərt. ed.: M.Məmmədova, A.Musa, Z.Abbas; red. G.Əmrullah qızı.– Bakı, 1998.– 160 s.

**23.** Özəlləşdirmə və mətbuat /Qubad İbadoğlu, Əflatun Amaşov; Press Klub Bakı Mətbuat Klubu "Yeni Nəsil" Azərbaycan Jurnalistlər Birliyi.– Bakı: Ağrıdağ, 1998.– 154 s.

**1999**

**24.** Azərbaycan Xalq Cümhuriyyətinin təhsil, elm və mədəniyyət sahəsində fəaliyyəti: tədris vəsaiti: 1918-1920-ci illər /X.Köçərli, X.Məmmədov; elmi red. C.P.Həsənli.– Bakı, 1999.– 89 s.

**25.** Azərbaycanda 1998-ci il (oktyabr) prezident seçkilərinin kütləvi informasiya vasitələrində işıqlandırılmasına dair monitorinq: Yekun məruzə Yanvar, 1999 /Avropa Media İn-tu; Avropa Birliyi.– Düsseldorf, 1999.– 55 s.

**26.**Çingiz ömrü /K.Nazimqızı; red. Q.İlqar, A.Şahverdiyev.– Bakı: Səda, 1999.– 208 s.

**27.** 3 may Ümumdünya mətbuat azadlığı günü /"Yeni Nəsil" Azərbaycan Jurnalistlər Birliyi; Birləşmiş Millətlər Təşkilatının Azərbaycan nümayəndəliyi.– Bakı, 1999.– 16 s.

**28.** Ürəklərdən gələn səs /F.Əsgərov; red. Ş.Əliyev.– Bakı: Naşir, 1999.– 88 s.

**29.** "Zabit" təxəllüslü bir şair...: seçilmiş məqalə və topladığı bayatılar /Z.Borçalı; tərt., ön söz və red. M.Teymur.– Bakı, 1999.– 75 s.

**2000**

**30.** Abıyev, A. Qısaltmalar sözlüyü /Aydın Abıyev; red. C.Aydın.– Bakı: Ozan, 2000.

**31.** Ədəbi dilimiz efirdə və ekranda /Nizami Xudiyev; elmi red. İsmayıl Məmmədov; rəy. Rəhilə Məhərrəmova, F.Şahbazlı.– Bakı, 2000.– 162 s.

**32.** "Əkinçi"dən "Həyat"a /tərt. D.Hacıyeva; red. S.Hüseynov.– Bakı, 2000.– 199 s.

**33.** Əməkdar jurnalist Vasif Səmədov-50: məqalələr toplusu /çapa hazırl., tərt.ed., ön söz: N.Hacızadə; red.: İ.Tapdıq, N.Hacızadə, İ.Məmmədova.– Bakı, 2000.– 303 s.

**34.** Əli-Bayramlı mətbuatı: "Muğan sədasından" başlanan "İşıqlı yol" /A.N.Abbasov, F.Rəhimov; red. M.Xəlilov.– Bakı: Araz, 2000.– 160 s.

**35.** Həqiqət carçısı /K.Nazimqızı; red. A.Balayev. – Bakı, 2000.– 220 s.

**36.** Həsən bəy Zərdabinin siyasi-hüquqi görüşləri /Q.Behbudov; elmi red. A.Rzayev; AEA İctimai-Siyasi Tədqiqatlar və İnformasiya İn-tu.– Bakı, 2000.– 116 s.

**37.** Jurnalistin hüquq və vəzifələri: qanunvericiliyin şərhi /İnsan hüquqlarının Müdafiə Cəmiyyəti; müəl. A.Bayramov; red. və lay. rəh. S.Qafarov; ön söz.: Q.Əliyev.– Bakı, 2000.– 44 s.

**38.** Məmmədova P. "Varlıq" Jurnalında ədəbiyyat məsələləri /P.Məmmədova; red. T.Əhmədov.– Bakı, 2000.– 200 s.

**39.** Mən necə jurnalist oldum: Xatirələr /Kazım Ələkbərov; red. S. İsmayılov.– Bakı, 2000.– 264 s.

**40.** Mətbuat azadlığı. Qanunvericlik və Təcrübə /Azərbaycan Hüquqçular Assosiasiyası; tərt. Ə.Hacıbəyli; red. İ.Əliyev.– Bakı: Yeni nəsil, 2000.– 144 s.

**41.** Musayeva Z. Kütləvi informasiya vasitələri və insan hüquqları /Musayeva Zərifə; "İnam" Plüralizm Mərkəzi.– Bakı, 2000.– 28 s.

**42.** "Ziya"dan "Çənlibel"ədək. Gürcüstanda Azərbaycan mətbuatı: 1878-1998 /M.Çobanlı; elmi red. N.Xudiyev; rəyçilər K.Talıbzadə, İ.Ömərov.– Bakı, 2000.– 80 s.

**43.** Zülmətdə "İşıq" /Amalya Qasımova; red. H.Zeynallı.– Bakı, 2000.– 107 s.

**2001**

**44.** Demokratik dövlətlərin seçki prosesində televiziya və radionun rolu /red. N.Yaqublu; Məhəmməd Əmin Rəsulzadə Fondunun nəşri.– Bakı, 2001.– 252 s.

**45.** İctimaiyyətlə əlaqələr: Bütün yollar KİV-dən keçir /R.İsmayılov; red. A.Əliyev; "Yeni Nəsil" Jurnalistlər Birliyi.– Bakı, 2001.– 168 s.

**46.** Jurnalist Əhməd İsayev 60: "Ad günün əks-sədası" görüşlər, xatirələr, ürək sözləri /red. M.Qərib.– Bakı: Ekologiya, 2001.– 127 s.

**47.** Jurnalistlər ekstremal şəraitdə / "RUH" Azərbaycan Jurnalistləri Müdafiə Komitəsi. Jurnalistika və Hüquq Mərkəzi; tərt. Ə.Amaşov; red. S.Hüseynli; tərc. F.Ağazadə.– Bakı: Yeni nəsil, 2001.– 88 s.

**48.** Kərimova, H. Nura boyanmış ömür /H.Kərimova; red. T.Əhmədov; məsl. N.Əsgərova.– Bakı, 2001.– 318 s.

**49.** Quliyev V. Böyük əkinçi: Həsənbəy Zərdabi /tərt., tərc., müqəd., izah və şərh. V.Quliyev.– Bakı: Ozan, 2001.– 180 s.

**50.** Məmmədli, C. Jurnalistikanın aktual problemləri [Elektron resurs]: dərs vəsaiti /C.Məmmədli; elmi red. N.Cəfərov, A.Rüstəmov.– Bakı, 2001.– 390 s.

**51.** Məmmədli, C. Jurnalistikaya giriş /C.Məmmədli.– Bakı, 2001.– 385 s.

**52.** Mətbuat qanunvericiliyi və təcrübə: ["Kütləvi informasiya vasitələrinə hüquq və informasiya yardımı" layihəsi] /Hüquq Maarifçiliyi Cəmiyyəti, ABŞ-ın Demokratiyaya Dəstək Milli Fondu; bur. məs. və ümumi red. İ.Əliyev.– Bakı, 2001.– 678 s.

**53.** Mirzəliyev, C. Mən jurnalistəm: Jurnalist peşəsinə və jurnalistikaya maraq göstərənlər üçün /Canalı Mirzəliyev; rəy.: H.Hacıyev, Ş.Həsənov.– Bakı, 2001.– 160 s.

**54.** Tahirli, A. Azərbaycan mühacirəti: tarixi, mətbuatı, mədəniyyət mərkəzləri /A.Tahirli; red.: M.P.Qasımlı, V.Hüseynov.– Bakı: Tural-Ə NPM, 2001.– 344 s.

**55.** Tahirli, A. Sözlə yarananlar, sözü yaşadanlar /Abid Tahirli; red.: M.Qasımlı, A.Rüstəmli.– Bakı, 2001.– 343 s.

**2002**

**56.** Cəfərov, M. Cəlil Məmmədquluzadə /Məmməd Cəfərov; ön söz. İ.Həbibbəyli.– Bakı: Çinar-çap, 2002.– 70 s.

**57.** Həbibbəyli, İ. Cəlil Məmmədquluzadə /İsa Həbibbəyli; red. Dilsuz.– Bakı, 2002.– 57 s.

**58.** Həbibbəyli, İ. Mollanəsrəddinçi karikatura ustası Oskar Şmerlinq /İsa Həbibbəyli; red. İman Cəfər.– Naxçıvan, 2002.– 51 s.

**59.** I Beynəlxalq Molla Nəsrəddin Karikatura müsabiqəsi: [Albom] /tərt. S.Səfərli; Almaniyanın Azərbaycandakı Səfirliyi; Alman-Azərbaycan Mədəniyyət Birliyi "Kapellhaus"; Azərbaycan Karikaturistləri Birliyi.– Bakı: Adiloğlu MMC, 2002.– 38 s.

**60.** İnformasiyalı cəmiyyət: Azadlıqlar, Qadağalar /burax. məs. Ə.Amaşov; red. H.Salmanov; Azərbaycan Jurnalistləri Müdafiə Komitəsi.– Bakı, 2002.– 154 s.

**61.** Jurnalist məsuliyyəti: Dünya Mətbuat şuralarının təcrübəsi /Press Klub Bakı Mətbuat Klub.– Bakı: Yeni nəsil MMC, 2002.– 72 s.

**62.** Jurnalistin vizual nitq mədəniyyəti: dərs vəsaiti /N.Əhmədli.– Bakı: Yeni Nəsil, 2002.– 119 s.

**63.** Media və hakimiyyət /Ə.Amaşov, Q.Əlibəyli; red. Ə.Məmmədov, F.Cəfərli; Azərbaycan Jurnalistləri Müdafiə Komitəsi.– Bakı, 2002.– 152 s.

**64.** Məmmədli, C. Elektron media: hüquqi tənzimləmə və təcrübə /C.Məmmədli; tərt. və burax. məs. M.Elyazov; red. F.Cəfərli, M.Aşirov; AJMK.– Bakı, 2002.– 150 s.

**65.** Məmmədov, İ. İrəvan dəftəri. İctimai fikir tariximizin qəribsəyən üfüqləri /İsrafil Məmmədov; elmi red. N.Cəfərov.– Bakı: Adiloğlu, 2002.– 210 s.

**66.** Mətbuat dilinin leksikası: (1970-1990): monoqrafiya /ön söz: S.Həbibova; elmi red. M.B.Məmmədov; red. N.Məmmədli; AMEA Nəsimi ad. Dilçilik İn-tu.– Bakı, 2002.– 115 s.

**67.** Molla Nəsrəddin: Azərbaycan ədəbiyyatının klassiki, görkəmli yazıçı, ictimai xadim, Cəlil Hüseyn oğlu Məmmədquluzadənin böyük şah əsəri: Təqvim 2002.– Bakı: Qismət NP, 2002.– 25 s.

**68.** Molla Nəsrəddin: 10 cilddə: (1906-1931) /transl. və tərt. T.Həsənzadə; red. Ə.Mirəhmədov; AMEA Nizami ad. Ədəbiyyat İn-tu.– Bakı: Azərnəşr, 2002.– C.2. (1908-1909).– 720 s.

**69.** Sərdarov, E. Vətəndaş cəmiyyəti mətbuat aynasında: mətbuatla iş /Elçin Sərdarov; "Saniyə" Humanitar İnformasiya Agentliyi.– Bakı: Təhsil, 2002.– 94 s.

**70.** Tahirli, A. Azərbaycan mühacirət mətbuatı: 2 hissədə: "Yeni Qafqasya", "Azərbaycan" (Paris), "Odlu yurd", Azərbaycan yurd bilgisi", "İstiqlal", "Azərbaycan" (Ankara) /A.Tahirli; red. Y.Qarayev.– Bakı, 2002.– H. 1.– 160 s.

**2003**

**71.** Dünya informasiya agentlikləri: dərs vəsaiti /H.Vəliyev; elmi red. C.Məmmədli; rəy. M.Mehdiyev; P.Məmmədli.– Bakı, 2003.– 63 s.

**72.** Ekstremal jurnalistika: praktik vəsait /tərt.ed. C.Məmmədli və b.; elmi red. C.Məmmədli, red. Ə.Mehdiyev; "Dinc Dünya" Araşdırma Mərkəzi.– Bakı: Şərq-Qərb, 2003.– 232 s.

**73.** Hacıyev, S. Müəllim ömrü: Pedaqoji düşüncələr: milli mədəniyyət, maarif, mətbuat yollarında /Sabir Hacıyev; Naşir: Q.İsmayıloğlu.– Bakı: Çinar-Çap, 2003.– 60 s.

**74.** Hamının qarşısında bəyan edirik...: mətbuatın özünütənzimləmə mexanizmi.– Bakı: "Yeni Nəsil" MMC, 2003.– 156 s.

**75.** Heydər Əliyev və mətbuat: 4 cilddə: müsahibələr, bəyanatlar, müraciətlər, çıxışlar. Yanvar, 1990 – iyul, 1996. /red. və ön söz. müəl. R.Mehdiyev; tərt. ed.: Ə.Abbasov, T.Əhmədov.– Bakı: Nurlar, 2003.– C.1.– 640 s.

**76.** Heydər Əliyev və mətbuat: 4 cilddə: müsahibələr, bəyanatlar, müraciətlər, çıxışlar. İyul, 1996 – iyul, 1998 /red. və ön söz. müəl. R.Mehdiyev; tərt. ed. Ə.Abbasov, T.Əhmədov.– Bakı: Nurlar, 2003.– C.2.– 640 s.

**77.** Heydər Əliyev və mətbuat: 4 cilddə: müsahibələr, bəyanatlar, müraciətlər, çıxışlar. İyul, 1998 – sentyabr, 2000/red. və ön söz. müəl. R.Mehdiyev; tərt. ed. Ə.Abbasov, T.Əhmədov.– Bakı: Nurlar, 2003.– C.3.– 640 s.

**78.** Heydər Əliyev və mətbuat: 4 cilddə : müsahibələr, bəyanatlar, müraciətlər, çıxışlar. Noyabr, 2002 – mart, 2003 /red. və ön söz. müəl. R.Mehdiyev; tərt. ed. Ə.Abbasov, T.Əhmədov.– Bakı: Nurlar, 2003.– C.4.– 640 s.

**79.** Jurnalistin hüquq məsləhətçisi /Z.Yusifova, Ə.Məmmədli, A.Bayramov, R.Hacılı; ön söz. müəl. və red. R.Hacılı; Media Hüquqları İn-tu.– Bakı, 2003. – 205 s.

**80.** Kəsəmənli, İ. Azərbaycan dövri mətbuatında işlənən qısaltma sözlər: Abbreviatura /İ.Kəsəmənli; red. M.Nəbili.– Bakı, 2003.– 176 s.

**81.** Media məlumat kitabçası /lay. rəhb. B.Əzizov.– Bakı, 2003.– 129 s.

**82.** Məmmədov, R.H. Rusiya: Ziyalılarmız, mətbuatımız, münasibətlərimiz /Ramin Hüseyn oğlu Məmmədov; red. A.İsabəyli.– Bakı: Şirvannəşr, 2003.– 110 s.

**83.** Mətbuat xidməti əməkdaşının stolüstü kitabı /müəl., tərt. və ön söz C.Cəfərov, İ.İbrahimli.– Bakı: Beynəlxalq Mətbuat Klubu İB, 2003.– 75 s.

**84.** Ömrə düşən izlər: (Müsahibələr, məqalələr) /S.Qafaroğlu; red. S.Bayramova.– Bakı, 2003.– C.2.– 303 s.

**85.** Tahirli, A. Azərbaycan mühacirət mətbuatı. 2 hissədə /Abid Tahirli; red.: A.R.Rüstəmov, A.H.Rüstəmli.– Bakı: Ozan, 2003.– H.2.– 276 s.

**2004**

**86.** Azərbaycan diasporu və milli mətbuat /R.Məmmədov; elmi red. və ön söz V.Arzumanlı.– Bakı: Qartal, 2004.– 168 s.

**87.** Azərbaycan mühacirət mətbuatına dair mühazirələr (1920-1990-cı illər): [dərs vəsaiti] /A.Bayramoğlu; red. C.Məmmədli; rəy.: A.Tahirli, P.Məmmədli; Bakı Dövlət Universiteti.– Bakı, 2004.– 102 s.

**88.** Azərbaycanda söz və mətbuat azadlığı sahəsində vəziyyət, 2003: "Ruh" AJMK-nin illik hesabatı /haz. H.Salmanov; red. B.İmanquliyev.– Bakı, 2004.– 82 s.

**89.** Hüseynov, Ş. Milli haqq və ədalət axtarışında /Şirməmməd Hüseynov.– Bakı: Adiloğlu, 2004.

**90.** Kütləvi informasiya vasitələri xaricə siyasi təbliğat sistemində: dərs vəsaiti /N.Əhmədli; elmi red. S.Məmmədli.– Bakı: Bakı Universiteti, 2004.– 155 s.

**91.** Jurnalist olmaq istəyirsənsə... /tərt. T.Əhmədov; red. U.Mirzəyev.– Bakı: Nurlar, 2004.– 200 s.

**92.** Kütləvi kommunikasiya və dil: dərs vəsaiti /Q.M.Məhərrəmli; rəyç.: N.A.Cəfərov, M.B.Məmmədov; red. Y.M.Əlizadə.– Bakı, 2004.– 208 s.

**93.** Qeyri-hökümət təşkilatları və kütləvi informasiya vasitələri: müttəfiqlik sazişi /tərt. N.Əliyev.– Bakı: Yeni nəsil, 2004.– 34 s.

**94.** Qədimov, Ə.N. Məhəmməd Tağı Sidqnin həyatı və yaradıcılığı: monoqrafiya / Əsgər Nadir oğlu Qədimov; elmi red. İ.Ə.Həbibbəyli.– Bakı: Çaşıoğlu, 2004.– 152 s.

**95.** Məhəmmədzadə, M.B. Azərbaycan türk mətbuatı /Mirzə Bala Məhəmmədzadə; red. C.Məmmədli; rəy. H.Vəliyev, M.Mehdiyev; ərəb əlifbasından çevirib tərt., ön söz, lüğət və qeyd. müəl. A.Bayramoğlu.– Bakı: Bakı Universiteti, 2004.– 84 s.

**96.** Məhərrəmli, Q. Danışır Təbriz /Q.Məhərrəmli; red. C.Həsənli.– Bakı: Nurlar, 2004.– 80 s.

**97.** Mənəvi irsimiz və gerçəklik: "Günay" səhifələrində /Ş.Hüseynov; red. Ü.Hüseynova.– Bакı: Adiloğlu, 2004.– 526 s.

**98.** Tiflis Azərbaycan mətbuatı tarixindən: 1830-1920 /Z.Borçalı; red. A.Zeynalzadə.– Bakı: Borçalı, 2004.– 117 s.

**2005**

**99.** Azərbaycanda informasiya vasitələrinin ümumi dəyərləndirilməsi /İnternyus Azərbaycan İctimai Birliyi.– Bakı: Uni Print, 2005.– 108 s.

**100.** Azərbaycan mühacirət mətbuatında publisistika: 1921-1991 /A.Tahirli; elmi red. Ş.Vəliyev; rəy.: X.Məmmədov, B.Ağayev; Bakı Dövlət Universiteti.– Bakı, 2005.– 528 s.

**101.** Dünyaminqızı, Q. Cümhuriyyət dövrü Azərbaycan mətbuatı: 1918-1920-ci illər /Q.Dünyaminqızı; elmi red., ön söz: A.Bayramoğlu.– Bakı, 2005.– H.1.– 129 s.

**102.** Əliyev, A. Mirzə Cəlil və Azərbaycan mətbuatı /Azər Əliyev; red. M.Teymurov; rəy. İ.Həbibbəyli.– Bakı: Elm, 2005.– 278 s.

**103.** Əkinçi: 1875-1877: tam mətni /tərt., transl. T.Həsənzadə; red. Ə.M.Mirəhmədov.– Bakı: Avrasiya Press, 2005.– 496 s.

**104.** Əliyev, A. Mirzə Cəlil və Azərbaycan mətbuatı /Azər Əliyev; red. M.Teymurov; rəyçi İ.Həbibbəyli.– Bakı: Elm, 2005.– 278 s.

**105.** Hacıyev, H. Gənc jurnalistlərə xitab /H.Hacıyev; tərt. R.Əskər; red. Ş.Babayev; ön söz Y.Əlizadə.– Bakı, 2005.– 135 s.

**106.** İman, C. "Molla Nəsrəddin"də jurnalistika sənətkarlığı məsələləri: metodik vəsait /İman Cəfər; rəy. İ.Həbibbəyli; Naxçıvan Dövlət Universiteti.– Naxçıvan: Qeyrət, 2005.– 65 s.

**107.** Jurnalistin nitq mədəniyyəti: dərs vəsaiti /Nəsir Əhmədli; red. Q.M.Məhərrəmli; rəyç.: C.Ə.Məmmədli, Z.Ə.-Məmmədli.– Bakı, 2005.– 162 s.

**108.** Mehdi, D. Çağdaş dünyada televiziya: Rejissor sənəti, Kulturologiya, Sənətşünaslıq fakültələrinin tələbələri üçün

estetika və televiziya sənəti üzrə metodik vəsait /D.Mehdi; red. N.Mehdi.– Bakı, 2005.– 44 s.

**109.** Məmmədov, A. Jurnalist bunları bilməlidir...: Kütləvi informasiya vasitələri işçiləri üçün stolüstü məlumat kitabı /A.Məmmədov, R.Xan-Sayadoğlu, C.Mirzəliyev; red. B.Hüseynov.– Bakı: Azərbaycan, 2005.– 500 s.

**110.** Mirzə Cəlil və Azərbaycan mətbuatı: "Molla Nəsrəddin"in 100 illiyi qarşısında /A.Əliyev; red. M.Teymurov.– Bakı, 2005.– 278 s.

**111.** Molla Nəsrəddin: 10 cilddə (1906-1931) /1909-cu ilin say. transl. ed., çapa hazırl. T.Həsənzadə; 1910-cu ilin say. transl. ed. və çapa haz. E.Qasımova; ön söz. İ.Həbibbəyli; red. T.Kərimli.– Bakı: Çinar-Çap, 2005. – C.3. №23-25 – 1910-cu illər.– 700 s.

**112.** Tahirli, A. Azərbaycan mühacirət mətbuatında publisistika (1921-1991): monoqrafiya /A.Tahirli; elmi red. Ş.Q.Vəliyev; Bakı Dövlət Universiteti.– Bakı, 2005.– 528 s.

**113.** Tibbi jurnalistika /N.Z.Məcidova; ruscadan tərc. ed. İ.Umudlu.– Bakı: Ziya-Nurlan, 2005.– 196 s.

**114.** Türkiyənin Azərbaycanın müstəqilliyini tanıması tarixindən: Mətbuat xəbərləri /H.Həsənov; tərt.: N.İ.Tanrıqulu, F.Süleymanoğlu.– Bakı: Pedaqogika, 2005. –72 s.

**115.** Vəliyev H. Beynəlxalq jurnalist təşkilatları: dərs vəsaiti /H.Vəliyev; elmi red. S.Məmmədov; rəy.: C.Məmmədli, İ.Mazanlı.– Bakı: UniPrint, 2005.– 84 s.

**2006**

**116.** Ağayev, İ. Tarixi yaddaşımızın böyük yadigarı: "Molla Nəsrəddin" satira jurnalının 100 illiyi /İslam Ağayev; red. B.Nəbiyev.– Bakı: Elm, 2006.– 56 s.

**117.** Azərbaycan mətbuatı tarixi: dərslik /tərt.-red. A.Şahverdiyev.– Bakı: Təhsil EİM, 2006.– 252 s.

**118.** Azərbaycan mətbuatı və çar senzurası (1850-1905) /A.Zeynalzadə; elmi red. Ə.Mirəhmədov; AMEA N.Gəncəvi ad. Ədəbiyyat İn-tu.– Bakı: Elm, 2006.– 328 s.

**119.** "Ədliyyə" qəzetinin 2006-cı il 01-06-cı nömrələrinin (yanvar-iyun) elektron variantı [Elektron resurs].– Bakı, 2006.– 1 CD ROM.

**120.** Əliyev, V. Beynəlxalq jurnalistikada etik normalar və Azərbaycan mətbuatı /V.Əliyev; elmi red. H.A.Vəliyev.– Bakı: Nurlan, 2006.– 151 s.

**121.** "Füyuzat" jurnalı və dil problemləri /S.Həsənova; elmi red. Y.M.Seyidov; rəy. V.H.Əliyev, S.İ.Vəliyev.– Bakı, 2006.– 298 s.

**122.** Gün işığı bələdçisi /R.Hacılı, Ə.Məmmədli; red. R.Hacılı; ATƏT-in media Azadlığı Ofisi Media Hüququ İn-tu.– Bakı, 2006.– 309 s.

**123.** Qafaroğlu, S. "Sumqayıt"ın işığında: (məqalələr, müsahibələr, oçerklər) /S.Qafaroğlu; red. T.Məmməd.– Bakı, 2006.– C.1.– 247 s.

**124.** Qocayev, Ə. Bayramlar və tarixi günlər: [Kitabda əlamətdar və tarixi günlər sırasında 22 iyul – Azərbaycan Milli Mətbuat Günü də qeyd edilmişdir.] /Ə.Qocayev.– Bakı: Altun kitab, 2006.- 152 s.- (Məktəblinin Kitabxanası. Elmi-Kütləvi Ədəbiyyat).

